

**“Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir”.**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbuldakı nitqindən.*

*Bakı şəhəri, 17 oktyabr 2016-cı il*

# MÜNDƏRİCAT




Ön söz 4



Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 6



Təşkilati və informasiya təminatı sahəsində görülmüş tədbirlər 22



Daxil olmuş müraciətlər, o cümlədən “161-Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyəti 24



Cinayət xarakterli materiallara baxılması və ibtidai istintaq sahəsində fəaliyyət 26



Mütəxəssislərin fəaliyyəti 29



Əməliyyat-axtarış sahəsində fəaliyyət 30



“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar tədbirlər 32



Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq 33



Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturu və fəaliyyət istiqaməti ilə tanışlıq 47



Vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əməkdaşlıq 47



Maarifləndirmə sahəsində görülən tədbirlər 49

# “Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə öz nəticəsini verir”.

*Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqindən*

*Bakı şəhəri, 10 iyul 2016-cı il*



# ÖN SÖZ

Son illər Azərbaycanın bütün sahələrdə özünü göstərməkdə olan sürətli inkişaf dinamikası ölkəmizi daha yüksək hədəflərə doğru irəliləməyə təşviq etmişdir.

Bu gün qarşıya qoyulmuş yeni məqsədlərə çatmaq istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə iqtisadiyyatın daha da liberallaşdırılması, maliyyə şəffaflığının və azad rəqabətin təmin olunması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş, məmur-sahibkar təmasının minimuma endirilməsi, əsassız yoxlamaların qarşısının alınması, daha çevik və keyfiyyətli idarəetmənin təmin edilməsi məqsədilə ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilməkdədir.

Həyata keçirilən uzaqgörən və müdrik siyasətin məntiqi nəticəsidir ki, Azərbaycan xalqı 26

sentyabr 2016-cı il tarixdə zamanın tələblərinə müvafiq olaraq dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi barədə keçirilmiş ümumxalq səsverməsində (referendumda) fəal iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və dövlətə olan dərin etimadını bir daha nümayiş etdirmişdir.

Bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə bu il keçirilən, 75 ölkədən 400-dən artıq nümayəndənin iştirak etdiyi 5-ci Bakı Beynəlxalq Humanitar Forumu, ölkəmizdə təşkil olunan 42-ci Ümumdünya Şahmat Olimpiadası və bu ilin yayında uğurla baş tutmuş Formula 1 Avropa Qran Prisi kimi mötəbər tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasına olan beynəlxalq etimadın bariz təcəssümüdür.

Vətəndaş-məmur təmas nöqtələrinin minimuma endirilməsinə yönəldilən qabaqlayıcı tədbirlər, o cümlədən Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə yaradılmış və artıq bir Azərbaycan brendi statusunu qazanmış “Asan xidmət” mərkəzlərinin fəaliyyətinin daha da genişləndirilməsi, sayının 11-ə çatdırılması, əhaliyə kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və innovasiyaların tətbiqi ilə həyata keçirilməsi və bu sahədə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə "ASAN Kommunal" mərkəzlərinin fəaliyyətə başlaması, habelə yarandığı gündən keçən qısa müddət ərzində bu xidmətə 13 milyondan çox müraciətin daxil olması və vətəndaşlara tam şəffaf prosedurlar əsasında müxtəlif xidmətlərin göstərilməsi bir tərəfdən korrupsiyaya qarşı mübarizəyə Azərbaycan dövləti tərəfindən verilən önəmin, digər tərəfdən isə bu sistemə Azərbaycan cəmiyyətinin inamının göstəricisidir.

Ötən dövrlərdə olduğu kimi, bu il ərzində də demokratik inkişaf yolu seçmiş müstəqil Azərbaycan Respublikasında rüşvətxorluq və korrupsiya cinayətlərinə qarşı mübarizə tədbirləri uğurla davam etdirilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, əhalinin dövlət orqanlarına etimadının artırılması, sahibkarların hüquqlarının müdafiəsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı” bu sahəyə olan yüksək diqqətin təzahürüdür.

2016-cı il ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ölkə vətəndaşlarını ciddi narahat edən korrupsiya cinayətlərinin və hüquqpozmalarının daha geniş yayıldığı idarəçilik və xidmət sahələri aşkar edilmiş, təqsirli şəxslər ifşa edilmiş, korrupsiya hüquqpozmaları, süni qiymət artımı, valyuta möhtəkirliyi və digər neqativ hallardan əziyyət çəkən vətəndaşların hüquqlarının bərpa edilməsi məqsədi ilə vətəndaşlardan “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş bir sıra müraciətlər üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmiş, əlaqəli dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində vətəndaşların çoxsaylı müraciətlərinin müsbət həll olunması təmin edilmiş, eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti dövlət orqanları ilə səmərəli qarşılıqlı əməkdaşlıq uğurla inkişaf etdirilmiş, habelə maarifləndirmə sahəsində kitab, bülleten, buklet və digər metodiki vəsaitlər nəşr olunmuş, kütləvi informasiya vasitələrində, televiziya kanallarında Baş İdarənin fəaliyyətini əks etdirən məlumatlar ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanmış bu Bülletendə 2016-cı il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunvericilik və institusional tədbirlərlə yanaşı Baş İdarənin həmin dövr ərzində fəaliyyəti barədə ətraflı məlumatlar əks olunmuşdur.

**Zakir QARALOV**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**



# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİ

Korrupsiya ilə əlaqədar cinayətlərin yüksək ictimai təhlükəlilik dərəcəsi, habelə ölkəmizin qoşulmuş olduğu BMT-nin 2004-cü il tarixli "Korrupsiya əleyhinə" Konvensiyasının 36-cı maddəsinin hər bir iştirakçı dövlətin öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq korrupsiya ilə mübarizə aparmaq üçün ixtisaslaşmış orqanların mövcudluğunun təmin edilməsi barədə öhdəliyinin icrası qaydasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Sərəncamı əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır. 28 oktyabr 2004-cü il tarixdə Azərbaycan Respublikasının Prezidentinin 138 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi və prokurorluq işçilərinin ümumi say tərkibi təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləş-



dirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar ölkə başçısının tapşırığına əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2010-cu il tarixli sərəncamına müvafiq olaraq Bakı şəhəri Binəqədi rayonu S.Bəhlulzadə küçəsi 10a ünvanında yerləşməklə 8200 kv.m. sahəyə malik olan inzibati bina və 110 nəqliyyat vasitəsi üçün 1900 kv.m. ölçüdə qaraj Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yerləşdirilməsi üçün Baş Prokurorluğun balansına verilmişdir.

İnzibati binanın birinci hissəsi 6, ikinci hissəsi isə 7 mərtəbədən ibarət olmaqla bina muzey, 80 və 250 nəfərlik konfrans zalları, 5 xidməti iclas otağı, 135 işçi otaq, kitabxana, müxtəlif təyinatlı inzibati otaqlar, yardımçı sahələr (anbarlar, arxivlər və sair), 100 nəfərlik yeməkxanadan ibarətdir. Bundan əlavə Baş İdarənin 3 mərtəbəli yardımçı binası müasir avadanlıqlarla təchiz edilmiş mətbəə, müxtəlif təyinatlı xidməti otaqlar, habelə nəqliyyat vasitələri üçün qarajdan ibarətdir.

30 sentyabr 2013-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərasimdə iştirak etmişdir. Binada yaradılmış şəraitlə tanış olduqdan sonra cənab Prezident İlham Əliyev Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin kollektivi ilə görüşərək onlara öz tövsiyə və tapşırıqlarını vermiş, fəaliyyətlərində uğurlar arzulamışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 11 mart 2011-ci il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokurorluq işçilərinin ümumi say tərkibi 60 ştat vahidi artırılaraq 100 nəfərə çatdırılmış, eyni zamanda texniki işçilərin sayında da əhəmiyyətli dəyişiklik edilərək 45 ştat vahidinə çatdırılmışdır. Bundan başqa, 18 mart 2011-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Əməliyyat axtarış fəaliyyəti haqqında" və "Prokurorluq haqqında" qanunlara dəyişikliklər edilərək Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək




səlahiyyətləri verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 08 aprel 2011-ci il tarixli Fərmanı ilə Nazirlər Kabinetinə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin dövlət orqanları tərəfindən aparılan elektron informasiya ehtiyatlarından real vaxt rejimində istifadəsinin təmin edilməsi məqsədilə müvafiq tapşırıqlar verilmişdir.

Eyni zamanda, dövlət başçısının qeyd olunan və 10 may 2011-ci il tarixli Fərmanları ilə Baş İdarənin Əsasnaməsində dəyişikliklər edilərək digər məsələlərlə yanaşı, korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan məlumatlar üzrə ilkin yoxlamanın aparılması və ya korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı müxtəlif peşə sahələrində xüsusi biliyə malik şəxslərdən istifadə etməklə fiziki və ya hüquqi şəxslərin fəaliyyətinin yoxlanması məqsədilə idarəyə mütəxəssislər qrupunun yaradılması səlahiyyəti verilmişdir.

Bununla yanaşı, 16 dekabr 2011-ci il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun 10/112 nömrəli əmri ilə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Reqlamenti" təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli



Fərmanı ilə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilərək Baş İdarə əməkdaşların ştat vahidi 100-dən 140-a çatdırılmışdır.

"Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi haqqında 14 fevral 2014-cü il tarixli qanunlar və həmin qanunların tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adlanmış və Baş İdarə Prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmiş, 09 yanvar 2015-ci il tarixdə Baş İdarənin yeni strukturu, Reqlamenti, idarə və şöbələrin Əsasnamələri təsdiq edilmişdir.





## BAŞ İDARƏNİN STRUKTURU

2011-ci ilədək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin tərkibi 3 şöbədən, 40 prokuror və müstəntiqdən, habelə 13 texniki işçidən ibarət tərkibdə olmuşdur.

2014-cü ildə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinə yeni dəyişiklik edilərək, strukturda 4 idarə, 3 şöbə yaradılmışdır. Bunlar:

– Təşkilati və informasiya təminatı idarəsi;
– Preventiv tədbirlər və təhqiqat idarəsi;
– İstintaq idarəsi;
– Daxili təhlükəsizlik şöbəsi;
– Əməliyyat idarəsi;
– Əməliyyat təminatı şöbəsi;
– Mütəxəssis təhlilləri şöbəsi.



## Təşkilati və informasiya təminatı idarəsi

Təşkilati və informasiya təminatı idarəsinin funksiyalarına korrupsiya hüquq pozmalarına dair məlumatların təhlili, hesabatların hazırlanması, korrupsiya ilə əlaqədar cinayətlər barədə vahid informasiya bazasının, "161-Qaynar xətt" əlaqə mərkəzinin işini təşkil etmək, metodiki tövsiyələrin hazırlanması, qanunvericiliyin sistemləşdirilməsi, beynəlxalq əlaqələr, mətbuata məlumatların hazırlanması və digər məsələlər daxildir.



## Preventiv tədbirlər və təhqiqat idarəsi

Preventiv tədbirlər və təhqiqat idarəsinin funksiyalarına korrupsiya hüquqpozmaları ilə əlaqədar dövlət orqanları, hüquqi və fiziki şəxslərdən, həmçinin "Qaynar xətt" əlaqə mərkəzindən daxil olmuş məlumatlar üzrə araşdırma aparmaq, təhlil yolu ilə korrupsiyaya dair tendensiyaları müəyyən etmək, onların qarşısının alınmasına dair təkliflər hazırlamaq və digər məsələlər daxildir.

## İstintaq idarəsi

İstintaq idarəsinin funksiyalarına korrupsiya ilə bağlı cinayətlərlə əlaqədar cinayət işi başlanması, ibtidai istintaq aparılması, korrupsiya ilə bağlı cinayətlərin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsi və digər məsələlər daxildir.



## Əməliyyat idarəsi

Əməliyyat idarəsinin funksiyalarına korrupsiya ilə bağlı cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması məqsədilə əməliyyat-axtarış tədbirlərinin hazırlanması və həyata keçirilməsi, korrupsiya cinayətləri törədərək istintaqdan və məhkəmədən qaçıb gizlənmiş şəxslərin axtarışı və tutulması üçün müvafiq tədbirlərin yerinə yetirilməsi və digər məsələlər daxildir.









## Daxili təhlükəsizlik şöbəsi

Daxili təhlükəsizlik şöbəsinin funksiyalarına prokurorluq orqanlarında korrupsiya ilə əlaqədar hüquqpozmalara dair daxil olmuş müraciətlərə baxılması, prokurorluq orqanlarında korrupsiya ilə bağlı cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması, prokurorluq orqanları əməkdaşları haqqında korrupsiya hüquqpozmaları ilə bağlı məlumatların təhlil edilməsi, ümumiləşdirilməsi və digər məsələlər daxildir.



## Əməliyyat təminatı şöbəsi

Əməliyyat təminatı şöbəsinin funksiyalarına korrupsiya hüquqpozmalarının ilkin araşdırılması və istintaqı zamanı prokuror və müstəntiqlərə zəruri köməklik göstərilməsi, əməliyyat təminatının həyata keçirilməsi, texniki vasitələrin hazırlanması, quraşdırılması və sökülüb çıxarılması, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı informasiya sistemlərindən, video və səs yazmadan, kino və fotoçəkilişdən, həmçinin digər texniki vasitələrdən istifadə edilməsi və digər məsələlər daxildir.






## Mütəxəssis təhlilləri şöbəsi

Mütəxəssis təhlilləri şöbəsinin funksiyalarına korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında daxil olan məlumatlar üzrə ilkin araşdırma və korrupsiya ilə bağlı cinayətlərin istintaqı zamanı maliyyə, mühasibat, bank, kredit, elm, texnika və digər peşə sahələrində yoxlamalar aparılması, yoxlamaların nəticələri üzrə rəy tərtib edilməsi, ilkin araşdırma materialları və cinayət işləri üzrə prokurorlara və müstəntiqlərə ixtisaslı məsləhətlər və tövsiyələr verilməsi və digər məsələlər daxildir.





**"Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi"nə uyğun olaraq Baş İdarə aşağıdakı vəzifə və hüquqları həyata keçirir.**

- korrupsiya ilə əlaqədar hüquqpozmalara dair daxil olmuş məlumatlara baxır və araşdırma aparır
- korrupsiya ilə bağlı cinayətlərlə əlaqədar cinayət işi başlayır və ibtidai istintaq aparır
- korrupsiya ilə bağlı cinayətlərin qarşısının alınması, aşkar edilməsi və açılması məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir
- korrupsiya ilə bağlı cinayətlərin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsi, habelə tətbiq oluna biləcək əmlak müsadirəsinin təmin edilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş tədbirlər görür
- korrupsiya qarşı mübarizə sahəsində maarifləndirmə və profilaktik tədbirləri və qanunvericiliyə müvafiq olaraq digər vəzifələri yerinə yetirir




# TƏŞKİLATİ VƏ İNFORMASİYA TƏMİNATI SAHƏSİNDƏ GÖRÜLMÜŞ TƏDBİRLƏR

Hesabat dövrü ərzində Təşkilati və informasiya təminatı idarəsi tərəfindən bir neçə normativ hüquqi aktın, əmr və qaydaların layihələri hazırlanmış, habelə bir sıra normativ aktlara dair rəy və təkliflər verilmişdir.

Belə ki, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, əhalinin dövlət orqanlarına etimadının artırılması, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın layihəsinin hazırlanmasında və müzakirələrində İdarə əməkdaşları fəal iştirak etmiş, öz töhfə və təkliflərini vermişdir.

“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planının layihəsi İdarə tərəfindən hazırlanaraq 19 may 2016-cı il tarixdə Baş prokuror tərəfindən təsdiq edilməklə, icrası istiqamətində zəruri tədbirlər davam etdirilir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, qabaqcıl təcrübənin öyrənilməsi məqsədi ilə Baş İdarənin 19 əməkdaşının 27 beynəlxalq tədbirlərə 18 xarici ölkələrə ezam edilməsi, o cümlədən ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlərin keçirilməsi ilə əlaqədar idarə tərəfindən zəruri təşkilati işlər yerinə yetirilmişdir.

Bundan əlavə, “161-Qaynar xətt” əlaqə mərkəzinin fasiləsiz fəaliyyətinin təmin edilməsi, əməkdaşlar tərəfindən növbətçilik qrafikinə və qaydalarına riayət edil-



məsi, mərkəzə daxil olmuş 5492 müraciətdən 4835-i aidiyyəti üzrə müvafiq təşkilatlara göndərilməsi idarə tərəfindən təmin edilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində bülleten, buklet, kitablar, metodiki vəsaitlər idarə tərəfindən hazırlanaraq nəşr edilmişdir.

Belə ki, hesabat dövründə İdarə tərəfindən “Korrupsiyaya qarşı mübarizə: sistemli yanaşma – Məqalələr toplusu” adlı kitab, 2016-cı ilin doqquz ayına və ilin yekununa dair “Bülleten” (ingilis və rus dillərində), Korrupsiya qarşı Mübarizə Baş İdarəsi buklet (ingilis və rus dillərində), “Korrupsiya qarşı Mübarizə Baş İdarəsi” haqqında məlumat kitabı (ingilis və rus dillərində), “Korrupsiya qarşı mübarizədə nailiyyətin 10 illiyi” jurnalı (ingilis dilində), Bülleten İACA (ingilis dilində), Siyasi iradə korrupsiyaya qarşı mübarizənin əsas elementi kimi (ingilis və rus dillərində), Korrupsiya qarşı Mübarizə Baş İdarəsi Statistik rəqəmlərlə (ingilis və rus dillərində), Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq (ingilis və rus dillərində), Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyası (ingilis və rus dillərində) və digər nəşriyyat məhsullari dərc edilmişdir.

Həmçinin, “Azərbaycan Prokurorluğu” jurnalının 1-ci, 2-ci və 3-cü nömrələrinin hər birinin 770 nüsxədən ibarət materialları, müxtəlif blank, kartoçka, protokol formaları, ittiham aktı, cinayət işi üzlüyü, foto albomlar və digər çap məhsullarının, o cümlədən beynəlxalq konfrans üzrə materiallar toplusunun hazırlanması ilə əlaqədar zəruri tədbirlər görülməklə mətbəədə nəşr edilməsi Təşkilati və informasiya təminatı idarəsi tərəfindən təmin edilmişdir.

Dövr ərzində idarə tərəfindən əvvəlki illərdə olduğu kimi, Baş Prokurorluğun Mətbuat xidməti vasitəsilə ictimai maraq doğuran və aktuallığı ilə seçilən Baş İdarə tərəfindən başlanılan, istintaqı aparılan cinayət işləri, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri, habelə korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq barədə kütləvi informasiya vasitələrinə məlumatların verilməsi təmin edilmişdir.

2016-cı il ərzində idarə tərəfindən Baş İdarənin qəbul otağında 2241 vətəndaşın qəbul edilməsi təmin edilmişdir. Bunlardan 65-i Baş İdarə rəisi, 199-u Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, 1977-i Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən qəbul edilmişdir.

# DAXİL OLMUŞ MÜRACİƏTLƏR, O CÜMLƏDƏN “161-QAYNAR XƏTT” ƏLAQƏ MƏRKƏZİNİN FƏALİYYƏTİ

2016-cı il ərzində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən vətəndaşların 9360 müraciətinə: 3868 ərizə, şikayət (bunlardan 1784-ü ilkin, 2084-ü təkrar) və 5492-i “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş (bunlardan 4996-ı ilkin, 496-ı təkrar) müraciətə baxılmışdır.

“161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 4835-i (88.03%)–aidiyyəti üzrə nazirlik, komitə və təşkilatlara göndərilmiş, 167-si (3.04%) Prokurorluğun müvafiq struktur qurumlarında, 490-ı (8.92%) Baş İdarədə araşdırılmış, bunlardan 23 (0.41%) müraciət üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin maddələri ilə cinayət işləri başlanılmışdır.

Bu müraciətlərdən 1355-i sosial müdafiə, 864-ü daxili işlər orqanları, 527-si icra hakimiyyəti orqanları, 440-ı səhiyyə, 205-si elektrik, 240-ı bələdiyyə, 217-si süni qiymət artımı, 195-i təhsil, 157-si ədliyyə, 129-u bank və qalanları digərləri ilə əlaqədar olmuşdur.

“161-Qaynar xətt” əlaqə mərkəzinə korrupsiya ilə əlaqədar olmayan məsələlərlə bağlı müraciət etmiş bir sıra vətəndaşlara hüquqları izah edilmişdir.

Daxil olmuş müraciətlər və onlara baxılmasının nəticələri üzrə aparılan təhlillər göstərir ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində həyata keçirilən qətiyyətli və düşünülmüş tədbirlər öz müsbət bəhrəsini verməkdədir.

2016-cı il ərzində idarə tərəfindən Baş İdarənin qəbul otağında 2241 vətəndaşın qəbul edilməsi təmin edilmişdir. Bunlardan 65-i Baş İdarə rəisi, 199-u Baş İdarə rəisinin müavinləri, idarə və ya şöbə rəisləri, 1977-i Təşkilati və informasiya təminatı idarəsinin prokurorları tərəfindən qəbul edilmişdir.

Baş İdarəyə daxil olmuş müraciətlərin müəyyən qismi müsbət həll edilərək vətəndaşların pozulmuş hüquqları bərpa edilmişdir. Eyni zamanda, “161-Qaynar xətt” əlaqə mərkəzinə daxil olmuş müraciətlərlə bağlı Baş İdarədə aparılan araşdırmalar zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar verilmiş, həmin təqdimatlara əsasən bir sıra işçilər intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.






## **Baş İdarədə baxılmış müraciətlərə** (“161 - Qaynar xətt”ə daxil olmuş müraciət) **dair diaqram**




CƏMİ 5492



# CİNAYƏT XARAKTERLİ MATERİALLARA BAXILMASI VƏ İBTİDAİ İSTİNTAQ SAHƏSİNDƏ FƏALİYYƏT

2016-ci  il ərzində Baş İdarədə 251 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılmış, 159 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılmış, 86 material üzrə isə cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş, 6 material isə aidiyyəti üzrə göndərilmişdir.

2016-cı il ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsində 480 cinayət işinin ibtidai istintaqı aparılmışdır.

2016-cı il ərzində İstintaq idarəsi tərəfindən 314 şəxs barəsində 216 cinayət işinin istintaqı tamamlanaraq, onlardan 313 şəxs barəsində 201 cinayət işi baxılması üçün məhkəməyə göndərilmişdir.

İstintaqı tamamlanmış cinayət işlərindən ümumilikdə 208 şəxs barəsində 111 iş Ağır Cinayətlər Məhkəmələrinə, o cümlədən 148 şəxs barəsində 76 iş Bakı, 24 şəxs barəsində 13 iş Lənkəran, 18 şəxs barəsində 8 iş Gəncə və 13 şəxs barəsində 10 iş Şəki Ağır Cinayətlər Məhkəməsinə, 5 şəxs barəsində 4 iş hərbi, eyni zamanda 105 şəxs barəsində 90 iş isə yerli rayon (şəhər) məhkəmələrinə göndərilmişdir.

2016-cı ildə məhkəmələrə göndərilmiş 313 şəxs barəsində 201 cinayət işindən, 110 şəxs barəsində




62 iş mənimsəmə və israf etmə, 61 şəxs barəsində 56 iş dələduzluq, 32 şəxs barəsində 22 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 2 şəxs barəsində 2 iş vəzifə səlahiyyətlərini aşma, 52 şəxs barəsində 10 iş rüşvət alma (passiv rüşvətxorluq), 17 şəxs barəsində 14 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 3 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 1 şəxs barəsində 1 iş səhlənkarlıq, 12 şəxs barəsində 11 iş hüquq verən rəsmi sənədləri istifadə etmə məqsədi ilə saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə, 2 şəxs barəsində 2 iş hədə-qorxu ilə tələb etmə, 4 şəxs barəsində 3 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 1 şəxs barəsində 1 iş vergi ödəməkdən yayınma, 7 şəxs barəsində 7 iş istehlakçıları aldatma, 1 şəxs barəsində 1 iş elektrik enerjisini talama, 1 şəxs barəsində 1 iş dərman vasitələrinin qanunsuz dövriyyəsi, 3 şəxs barəsində 2 iş sübutları saxtalaşdırma, 3 şəxs barəsində 2 iş qanunsuz sahibkarlıq, 1 şəxs barəsində 1 iş kompyuter sisteminə qanunsuz daxil olma faktları ilə əlaqədar olmuşdur.

Hesabat dövründə məhkəmələrə göndərilmiş 201 cinayət işindən 167 iş maddi ziyanla əlaqədar olmuşdur.

Həmin işlər üzrə vurulmuş cəmi 202.628.644 manat ziyandan ibtidai istintaq dövründə 33.249.495 manat və ya 16,6 %-i ödənilmişdir.

Belə ki, dövlət mülkiyyətinə vurulmuş cəmi 162.543.245 manat ziyandan ibtidai istintaq dövründə 21.984.723 manat və ya 13,5 %, xüsusi mülkiyyətə vurulmuş cəmi 40.085.399 manat ziyandan 11.264.772 manat və ya 28,2 %-nin ödənilməsi təmin edilmişdir.

Bundan əlavə, 2016-cı il ərzində istintaqı başa çatdırılmış 4 cinayət işi üzrə cəmi 78.282.605 manat dəyərində əmlak üzərinə həbs qoyulması təmin edilmişdir.

## 2016-cı il ərzində istintaqı aparılmış cinayət işlərinə dair diaqram




- Cinayət işi Baş İdarə rəisi tərəfindən başlanılmış – 162
- Cinayət işi digər işlərdən ayrılmış – 105
- Cinayət işinin icraatı təzələnmiş – 55
- Cinayət işi Baş Prokurorluq vasitəsi ilə aidiyyəti orqanlardan daxil olmaqla icraata qəbul edilmişdir – 46

## 2016-cı il ərzində məhkəmələrə göndərilmiş 313 şəxs barəsində

- **110** şəxs barəsində mənimsəmə və israf etmə
- **61** şəxs barəsində dələduzluq
- **32** şəxs barəsində vəzifə səlahiyyətlərindən sui-istifadə
- **2** şəxs barəsində vəzifə səlahiyyətlərini aşma
- **52** şəxs barəsində rüşvət alma (passiv rüşvətxorluq)
- **17** şəxs barəsində rüşvət vermə (aktiv rüşvətxorluq)
- **3** şəxs barəsində vəzifə saxtakarlığı
- **1** şəxs barəsində səhlənkarlıq
- **12** hüquq verən rəsmi sənədləri istifadə etmək məqsədilə saxtalaşdırmaq sübutları saxtalaşdırma
- **2** şəxs barəsində hədə-qorxu ilə tələb etmə
- **4** şəxs barəsində vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə
- **1** şəxs barəsində vergi ödəməkdən yayınma
- **7** şəxs barəsində istehlakçıları aldatma
- **1** şəxs barəsində dərman vasitələrini qanunsuz dövriyyəsi
- **1** şəxs barəsində elektirik enerjisinin talanması
- **3** şəxs barəsində qanunsuz sahibkarlıq
- **4** şəxs barəsində digər faktlarla əlaqədar olmuşdur

# MÜTƏXƏSSİSLƏRİN FƏALİYYƏTİ

2016-cı il ərzində Mütəxəssis təhlilləri şöbəsi tərəfindən Baş İdarənin struktur qurumlarından təqdim edilmiş material və cinayət işləri üzrə müvafiq yoxlamalar aparılmışdır.

Belə ki, hesabat dövründə İstintaq idarəsindən 76 (bunlardan 9-u məhkəmə qərarı əsasında), Daxili Təhlükəsizlik şöbəsindən 10, Preventiv tədbirlər və təhqiqat idarəsindən 10, Əməliyyat idarəsindən 2, Əməliyyat təminatı şöbəsindən 1, Baş İdarənin böyük prokurorları tərəfindən 2 material olmaqla, cəmi 101 material Mütəxəssis təhlilləri şöbəsinin icraatında olmuşdur.

Hesabat dövründə Baş İdarədə fəaliyyət göstərən "161-Qaynar xətt" əlaqə mərkəzində Mütəxəssis təhlilləri şöbəsinə 1 məlumat daxil olmuş, həmin müraciət şöbənin böyük prokuroru tərəfindən cinayət xarakterli material kimi araşdırılmış və nəticədə korrupsiya cinayəti və ya hüquqpozması aşkar edilmədiyi üçün material işə alınmışdır.

Müqayisə üçün qeyd edilməlidir ki, 2015-ci ildə İstintaq idarəsindən "Mütəxəssisin cəlb edilməsi haqqında" 37 qərar (bunlardan 1-i məhkəmə qərarı əsasında), Preventiv tədbirlər və təhqiqat idarəsi tərəfindən mütəxəssis araşdırılmasının aparılması üçün 5 material, Daxili təhlükəsizlik şöbəsindən təhqiqat materialının araşdırılması üçün mütəxəssisin ayrılması barədə 4 təqrir, Əməliyyat idarəsindən mütəxəssisin ayrılması barədə 5 təqrir, Əməliyyat təminatı şöbəsindən mütəxəssisin ayrılması barədə 2 təqrir olmaqla, cəmi 53 material Mütəxəssis təhlilləri şöbəsinin icraatında olmuşdur.






# ƏMƏLİYYAT-AXTARIŞ SAHƏSİNDƏ FƏALİYYƏT

2016-cı il ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən ümumillikdə 38 cinayət xarakterli məlumata baxılmış, bunlardan 32 material üzrə cinayət işi başlanılmışdır.

Hesabat ilində Baş İdarənin əməliyyat qurumları tərəfindən peşəkarlıqla həyata keçirilmiş 6 əməliyyat tədbiri nəticəsində 6 vəzifəli şəxsin cinayət başında yaxalanması da xüsusi vurğulanmalıdır.

Azərbaycan milli pul vahidi manatın devalvasiyası ilə əlaqədar xarici valyutanın Mərkəzi Bank tərəfindən müəyyən olunmuş kursundan kənara çıxma hallarının qarşısının alınması məqsədi ilə Bakı şəhərində fəaliyyət göstərən valyuta mübadiləsi məntəqələrinin və onların vəzifəli şəxslərinin qanunazidd əməllərinin aşkarlanması üzrə əməliyyat-axtarış tədbirləri keçirilmiş, o cümlədən müvafiq lisenziya almadan fəaliyyət göstərən belə məntəqələrin müəyyən olunması və onların qanunsuz fəaliyyətinin sənədləşdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür.



# “AÇIQ HÖKUMƏTİN TƏŞVİQİNƏ DAİR 2016-2018-ci İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI”NIN İCRASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, əhalinin dövlət orqanlarına etimadının artırılması, sahibkarların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilmişdir.

Layihəsinin hazırlanmasında və müzakirələrində Baş İdarə əməkdaşlarının fəal iştirak etdiyi və öz töhfələrini verdiyi yeni Fəaliyyət Planı korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradənin göstəricisi olaraq, bu sahədə qanunvericiliyinin təkmilləşdirilməsi, hüquqi və institusional islahatların davam etdirilməsi, əlaqəli dövlət orqanları ilə birlikdə daha böyük korrupsiya şəbəkələrinin aşkar edilməsi istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur.

“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun Tədbirlər Planının layihəsi Baş İdarə tərəfindən hazırlanaraq 19 may 2016-cı il tarixdə Baş prokuror tərəfindən təsdiq edilməklə, icrası istiqamətində zəruri tədbirlər davam etdirilir.



# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

## *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi ilə əməkdaşlıq*



21–22 aprel 2016-cı il tarixlərdə Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) "Şərqi Avropa və Mərkəzi Asiyada korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş islahatların təsirinin gücləndirilməsi" mövzusunda yüksək səviyyəli görüşü və Şəbəkənin Rəhbər Qrupunun 20-ci görüşü keçirilmişdir. Şərqi Avropa və Mərkəzi Asiya regionuna daxil olan ölkələrin yüksək vəzifəli dövlət rəsmiləri, eləcə də nüfuzlu beynəlxalq və qeyri-hökümət təşkilatlarının çoxsaylı nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının həmin təşkilatının Anti-Korrupsiya Şəbəkəsi üzrə milli koordinatoru, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Qeyd olunan tədbirdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində aparılan genişmiqyaslı tədbirlər barədə, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

Qeyd olunan tədbirdə IV Monitorinq Raundu üzrə Gürcüstanla yanaşı, Azərbaycan Respublikasının monitorinq mərhələsinə daxil olacaq ilk ölkələr olması müəyyən edilmişdir.

Daha sonra, IV Monitorinq mərhələsi ilə əlaqədar 20-24 iyun 2016-cı il tarixlərində qeyd edilən təşkilatın on nəfərlik ekspert qrupunun Azərbaycan Respublikasına səfəri baş tutmuşdur.

Qeyd edilən ekspert qrupunun səfəri çərçivəsində Azərbaycan Respublikası üzrə müvafiq hesabatın hazırlanması ilə əlaqədar ekspert qrupunun üzvləri ilə bir sıra dövlət orqanlarının nümayəndələri arasında anti-korrupsiya siyasəti və qurumları, biznesdə dürüstlük, korrupsiyaya dair cinayət qanunvericiliyi və onun praktikada tətbiqi, dövlət qulluğunda dürüstlük, korrupsiya cinayətlərinin ibtidai istintaqı, dövlət ittihamının müdafiə edilməsi və cəzalandırılma, dövlət rəsmilərinin dürüstlüyü, məhkəmə sistemində və prokurorluqda dürüstlük, təhsil sektorunun ətraflı



Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasını təmsil edən yüksək vəzifəli şəxslər, eləcə də müxtəlif rayon (şəhər) və apellyasiya məhkəmələrinin hakimləri iştirak etmişlər.

Bununla yanaşı, ekspert qrupunun üzvləri Azərbaycan Respublikasının Milli Məclisi, Təhsil Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatasına səfər edərək bir sıra görüşlər keçirmiş, 5 saylı ASAN xidmət mərkəzinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Korrupsiyaya qarşı mübarizənin Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmasının və Azərbaycanın bu sahədə beynəlxalq əməkdaşlığa verdiyi önəmin göstəricisi kimi qeyd edilən görüşlərdə Azərbaycan Respublikasının Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri cənab Əli Hüseynli, Təhsil nazirinin müavini cənab Ceyhun Bayramov, Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Direktorlar Şurasının sədri cənab Rüfət Aslanlı, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri xanım Məleykə Abbaszadə iştirak etmişlər.

Səfər çərçivəsində həmçinin, ekspert qrupunun üzvləri ilə sahibkarlar, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatların nümayəndələri arasında da görüşlər keçirilmişdir.

Səfərin nəticələrinə əsasən ekspert qrupu tərəfindən Azərbaycan Respublikası üzrə yekun hesabat hazırlanmış və həmin hesabat 14-16 sentyabr 2016-cı il tarixlərdə Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının

qiymətləndirilməsi, dövlət idarəçiliyində məsuliyyət və şəffaflıq, dövlət satınalmalarında şəffaflıq adlı müzakirə panellərində görüşlər və müzakirələr keçirilmişdir.

Panel müzakirələrdə Azərbaycan Respublikası Baş Prokurorluğu və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları ilə yanaşı, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya, Prezident Administrasiyası (o cümlədən Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisinin xidməti), Milli Məclis, Nazirlər Kabineti, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Gömrük Komitəsi, Məhkəmə-Hüquq Şurası, Maliyyə Bazarlarına Nəzarət Palatası, Hesablama Palatası, Dövlət Neft Fondu, Dövlət İmtahan Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Mərkəzi Bank, Mərkəzi Seçki



(OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı üzrə 17-ci monitorinq görüşündə müzakirə edilmişdir.

Hesabatın müzakirəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Azərbaycan Respublikası üzrə milli koordinatoru - Azərbaycan Respublikasının Baş prokurorunun müavini, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Baş İdarənin məsul əməkdaşları, həmçinin qeyri-hökümət təşkilatının nümayəndələri iştirak etmişlər.

Müzakirələr zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının III Monitorinq Raundu çərçivəsində ölkəmizdə həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr müzakirə edilmiş, bu mərhələdə Azərbaycan Respublikasının ölkə Prezidentinin siyasi iradəsinə uyğun olaraq mühüm addımlar ataraq uğurlar əldə etməsi, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstanbul Fəaliyyət Planının icrası istiqamətində görülmüş tədbirlərdə aktiv iştirakı, həmçinin korrupsiyaya qarşı mübarizədə "ASAN" xidmət mərkəzlərinin mühüm rol oynaması xüsusi vurğulanmış, ölkəmizin əldə etdiyi müsbət təcrübə önə çəkilmiş, nəticədə Azərbaycan Respublikası Gürcüstanla yanaşı ilk olaraq III Monitorinq Raundunu uğurla tamamlayaraq IV qiymətləndirmə mərhələsinə keçən ölkə olmuşdur.

Bundan əlavə, cari ilin 19-21 dekabr tarixlərdə Qazaxıstan Respublikasının Astana şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Hüquq mühafizə Orqanları Şəbəkəsinin Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində Korrupsiyaya qarşı Mübarizə Şəbəkəsinin 7-ci görüşü keçirilmişdir.

Tədbirdə ölkəmizi Baş İdarənin Mütəxəssis təhlilləri şöbəsinin rəisi Rəşid Mahmudov və Əməliyyat idarəsinin rəis müavini Emin Mürsəliyevdən ibarət nümayəndə heyəti təmsil etmişdir

Görüşdə korrupsiya cinayətləri ilə əlaqədar aparılan istintaq çərçivəsində dövlətlərin hüquq mühafizə orqanları və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın əhəmiyyəti, korrupsiya cinayətləri nəticəsində əldə olunmuş gəlirlərin müsadirəsi metodları, bu qəbildən olan cinayətlərinin təqibini həyata keçirən prokurorların müstəqilliyi ilə əlaqədar geniş fikir mübadiləsi aparılmış, nümayəndə heyətimiz tərəfindən Baş İdarədə istintaq olunan konkret cinayət işi üzrə müvafiq təqdimat nümayiş etdirilmişdir.

## *Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlıq*

13–20 mart 2016-cı il tarixlərində Fransa Respublikasının Strasburq şəhərində Avropa Şurasının təşkilatı – Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) tərəfindən keçirilmiş növbəti 71-ci Plenar İclasda Baş İdarənin böyük prokuroru Elnur Musayev iştirak edərək ölkəmizdə həyata keçirilən islahatlar barədə geniş məlumat vermişdir.

Cari ilin 28 noyabr-2 dekabr tarixlərində Fransanın Strasburq şəhərində Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) 74-cü plenar iclası keçirilmiş və iclasda parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması mövzularını əhatə edən 4-cü dəyərləndirmə raundu üzrə tərtib edilmiş Azərbaycan Respublikası üzrə Uyğunluq hesabatı müzakirə edilmişdir.

Tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorunun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Milli Məclisin deputatı Vüsal Hüseynov, Məhkəmə Hüquq Şurasının Aparatının rəhbəri Cavid Hüseynov, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov və Baş İdarənin böyük prokuroru Elnur Musayevin iştirak etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Müzakirələr zamanı ölkəmizdə həyata keçirilmiş tədbirlər və əldə edilmiş nəticələr müzakirə edilmiş, bu mərhələdə Azərbaycan Respublikasının Prezidentinin siyasi iradəsinə uyğun olaraq mühüm institusional və qanunvericilik tədbirlər həyata keçirilməsi vurğulanmaqla, Azərbaycna Respublikası üzrə 4-cü dəyərləndirmə raundu çərçivəsində Uyğunluq Hesabatı qəbul edilmişdir.

Plenar iclas zamanı keçirilmiş səsvermə nəticəsində Xorvatiya nümayəndəsi Marin Mrçela yenidən GRECO-nun Prezidenti vəzifəsinə seçilmiş, bundan başqa, təşkilatın bürosuna seçkilər baş tutmuş və Azərbaycan Respublikasının nümayəndə heyəti hər iki seçki prosesində fəal iştirak etmişdir.

Bundan əlavə, iclas çərçivəsində Baş İdarənin böyük prokuroru Elnur Musayev Gürcüstan üzrə dəyərləndirici ekspert qismində çıxış etmişdir.

## *Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq*



Sentyabrın 29-da Baş prokuror Zakir Qaralov ölkəmizdə keçirilən V Bakı Beynəlxalq Humanitar Forumu ilə əlaqədar səfərdə olan Bolqarıstanın vitse-prezidenti, Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) İdarəetmə Şurasının sədri xanım Marqarita Popova ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında mövcud strateji əməkdaşlığın ruhuna uyğun olaraq hər iki ölkənin prokurorluq orqanları arasında səmərəli ikitərəfli əlaqələrin inkişaf etməsindən doğan məmnunluq ifadə edilmiş, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional, cinayət təqibi və qabaqlayıcı tədbirlər barədə, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturu və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verilmişdir.

Eyni zamanda, Baş prokuror Zakir Qaralov korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əhəmiyyətini, təcrübə mübadiləsinin vacibliyini nəzərə almaqla, bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əlaqələrin qurulmasına və daha da inkişaf etdirilməsinə daim önəm verildiyini bildirmişdir.

Baş prokuror ölkələrimiz arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində, o cümlədən Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) İdarəetmə Şurasının sədri kimi fəaliyyət göstərdiyi müddət ərzində ölkəmizə ayırmış olduğu xüsusi diqqət və müsbət töfhələrinə görə, o cümlədən bu mötəbər beynəlxalq təşkilatla əməkdaşlığın inkişaf etdirilməsində göstərdiyi fəal dəstəyə görə xanım Marqarita Popovaya minnətdarlığını bildirmişdir.

Görüş zamanı Azərbaycan və Bolqarıstan Baş Prokurorluqları arasında 2017-ci il ərzində qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsi və təcrübə mübadiləsi məqsədilə müvafiq fəaliyyət planının tərtib edilməsinə dair ilkin razılıq əldə olunmuşdur.

Sonra qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında müxtəlif səviyyəli konfransların və tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş iclas zalları, normativ-hüquqi aktlarla zəngin və digər dövlət orqanlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, kriminalistika otağı, müasir proqram təminatı ilə təchiz edilmiş "161-Qaynar xətt" əlaqə mərkəzi, dövlət or-





qanlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi və vətəndaşların qəbulu otağı ilə yaxından tanış olmuşlar.

Sonda qonaqlara korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətini əks etdirən buklet, bülleten və kitabçalar təqdim edilmişdir.

İyulun 1-dən 8-dək Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən Beynəlxalq Antikorrupsiya Akademiyasında (IACA) 6-cı Yay Akademiyası (IACSA) keçirilmiş və 50-dən artıq dövlətin nümayəndələrinin iştirak etdiyi tədbirdə Baş Prokurorluğu Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli təmsil etmişdir.

"Təcrübə elmlə qovuşur" mövzusunda keçirilən tədbirdə Azərbaycan təmsilçisi builki Yay Akademiyası qrupunun rəhbəri seçilmiş və müvafiq tapşırıqların həllində xüsusi fəallıq göstərdiyinə görə Akademiyanın mükafatı ilə təltif olunmuşdur.

Noyabrın 10-11-də Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzv dövlətlərin və Tərəflərin Assambleyasının 5-ci illik sessiyası keçirilmişdir. Tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Akademiyaya tərəf olan 70 dövlət və beynəlxalq təşkilatdan 250 nəfər nümayəndənin iştirak etdiyi Assambleyanın açılışında IACA-nın İdarə Heyətinin sədri Eduardo Vetere və Akademiyanın dekanı və icraçı direktoru Martin Kreutner çıxış edərək Akademiyanın inkişafı ilə bağlı görülən işlər, əldə edilmiş uğurlar və gələcək planlar barədə ətraflı məlumat vermişlər.

Sessiyada çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən qanunvericilik və institusional islahatlar, əldə edilmiş nailiyyətlər, o cümlədən cinayət təqibi tədbirləri, habelə korrupsiyanın qarşısının alınması sahəsində ən unikal institusional təşəbbüslərdən biri kimi Azərbaycan brendi olan "ASAN Xidmət" mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Azərbaycan Respublikasının Akademiya ilə qarşılıqlı əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayan nümayəndə heyətinin rəhbəri qurumun Assambleyasının 3-cü sessiyasının Bakı şəhərində keçirilməklə Azərbaycan Respublikası Baş prokurorunun Assambleyanın sədri vəzifəsinə seçilməsinin, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Vüsal




Hüseynovun hazırda Akademiyanın İdarə Heyətinin üzvü olmasının, habelə Azərbaycan Respublikasının nümayəndələrinin Akademiyanın magistr kursları və yay məktəbi proqramlarından mütəmadi olaraq faydalanmasının qarşılıqlı əlaqələrin inkişafına ciddi təkan verdiyini qeyd etmişdir.

Azərbaycan Respublikası ilə Akademiya arasında qarşılıqlı münasibətlər, habelə ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələr nəzərə alınmaqla Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri, Akademiyanın Büro üzvü, Assambleyanın 5-ci sessiyasının sədrinin müavini vəzifəsinə seçilmiş, habelə sessiyanın aparılması ona həvalə olunmuşdur. Habelə, iclasda Argentina Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Mariano Qrosso Beynəlxalq Antikorrupsiya Akademiyasının Tərəflərin Assambleyasının 5-ci sessiyasının sədri seçilmişdir.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Akademiyanın rəhbərliyi, habelə bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilmiş və qarşılıqlı əməkdaşlıq imkanları barədə ətraflı fikir mübadiləsi aparılmışdır. Akademiyanın rəhbər vəzifəli şəxsləri ilə görüş zamanı IACA-nın magistr kursu üzrə modullardan birinin növbəti sessiyasının Bakı şəhərində keçirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Sessiya çərçivəsində Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar, bukletlər və statistik məlumatlar tədbir iştirakçılarına təqdim edilmişdir.

Dekabrın 9-da Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Günündə Beynəlxalq Antikorrupsiya Akademiyasının Avstriyada yerləşən mənzil qərargahında magistr proqramını başa vurmuş məzunların növbəti – Milli Məclisin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Vüqar Məmmədov, Xarici İşlər Nazirliyinin əməkdaşı Süleyman Rüstəmov, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əməkdaşı Məftun Abbasov, eləcə də proqramı fərqlənmə ilə bitirmiş Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov və Baş İdarənin böyük prokuroru Elnur Musayev Akademiyanın magistr proqramının məzunu olublar.

Buraxılış mərasimində bütün məzunlar adından maqistr qrupunun rəhbəri Elnur Musayev internet vasitəsilə dünyaya yayımlanan çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, institusional və cinayət təqibi tədbirləri haqqında ətraflı məlumat vermiş, eyni zamanda dünya ictimaiyyətinin Akademiyanın inkişafına dəstək verməsi barədə müraciət etmişdir.

Akademiyanı bitirən məzunlara “Korrupsiyaya qarşı mübarizə üzrə mütəxəssis” adı verilməklə diplomlar təqdim olunmuşur. Bundan başqa, dekabrın 5-də Çirkli Pulların Yuyulmasına Qarşı Mübarizə üzrə Sertifikatlaşdırılmış Ekspertlər Assosiasiyasının müvafiq imtahanını uğurla keçmiş Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə ekspert sertifikatına layiq görülmüşdür.

# *Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq*




15-16 mart 2016-cı il tarixlərdə Finlandiyanın paytaxtı Helsinki şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin 41-ci iclası keçirilmişdir. Tədbirdə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak etmişdir.

Əlamətdar haldır ki, dünyanın aparıcı dövlətlərinin prokurorluq orqanlarının rəhbər şəxslərinin təmsil olunduğu İcraiyyə Komitəsinin 41-ci yaz iclasında ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə vermiş olduğu töhfələr, fəal iştirakçılıq və yüksək səviyyəli işgüzar əlaqələr nəzərə alınmaqla, Azərbaycan Respublikasının nümayəndəsi K.Əliyevin növbəti müddətə üzv seçilməsi məsələsi ilə əlaqədar ilkin qərar qəbul edilmişdir.

Bundan başqa, 26-27 aprel 2016-cı il tarixlərdə Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun dəvəti ilə ölkəmizə Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst Hübnerin və Assosiasiyanın Baş müşaviri cənab Rasmus Vandalın səfəri baş tutmuşdur.

Qonaqları salamlayan Baş prokuror Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş qanunverici və institusional tədbirlər, o cümlədən “ASAN xidmət” mərkəzləri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin uğurlu fəaliyyətləri barədə ətraflı məlumat vermiş, Assosiasiya ilə səmərəli əməkdaşlıqdan məmnunluğunu bildirmişdir.

Təmsil olunduqları qurumla Azərbaycan Prokurorluğu arasında sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaqlar Azərbaycanın Beynəlxalq Prokurorlar Assosiasiyasında təmsilçiliyinin fəallığı və təşəbbüskarlığı, qurumun fəaliyyətinə verdiyi mühüm töhfələr və görülən digər səmərəli tədbirləri yüksək qiymətləndirmişlər.

Səfər çərçivəsində aprelin 27-də Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraçı direktoru xanım Yanne Holst Hübnerin və Assosiasiyanın Baş müşaviri cənab Rasmus Vandal Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında quruma fərdi üzv qəbul edilmiş gənc prokurorluq əməkdaşları ilə görüşmüşlər.

Xanım Y.Hübner və cənab R.Vandalla görüş zamanı Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvü, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Assosiasiyanın elektron səhifəsində rus versiyasının və Korrupsiyaya qarşı Mübarizə aparan Prokurorlar Şəbəkəsinin (NACP) səmərəli fəaliyyətinin təmin edilməsi və qarşılıqlı əməkdaşlığın səmərəliliyinin artırılması ilə əlaqədar fikir mübadiləsi aparmışdır.

2016-cı ilin sentyabr ayının 11-dən 15-dək İrlandiya Respublikasının paytaxtı Dublin şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 21-ci İllik Konfransı




və Ümumi Yığıncağı keçirilmişdir. Tədbirdə ölkəmizi Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Assosiasiyanın Antikorrupsiya Şəbəkəsinin iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri "Korrupsiyaya qarşı mübarizə və beynəlxalq əməkdaşlıq" mövzusunda təqdimatla çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasəti nəticəsində ölkə həyatının bütün sahələrində möhtəşəm uğurlar qazanılmaqla irimiqyaslı nailiyyətlərə imza atıldığını xüsusi vurğulamışdır.

Daha sonra, dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha intensiv xarakter almaqla mütərəqqi təşkilati və institusional tədbirlərin həyata keçirilməsi barədə ətraflı məlumat verən natiq, korrupsiyaya qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında region ölkələrinin hüquq sistemində və qanunvericiliyində bu sahədə mövcud olan problemlər, onların həlli yolları və inkişaf perspektivlərinə toxunmuşdur.

Eyni zamanda, İcraiyyə Komitəsinin iclasında nümayəndə heyətinin rəhbəri çıxış edərək, Azərbaycanın BPA-nın fəaliyyətinə verdiyi önəmi xüsusi vurğulamış, ötən il ərzində Assosiasiya ilə səmərəli əməkdaşlığın inkişafı istiqamətində görülmüş işlərlə bağlı ətraflı məlumat vermişdir. İclasda həmçinin gündəlikdə duran təşkilati məsələlərlə əlaqədar fikir mübadiləsi aparılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Assosiasiyanın Antikorrupsiya Şəbəkəsinin növbədənkənar iclasında Qətərin Baş prokuroru Bin Fetais Al Marri, İsveçrənin Baş prokuroru Mixael Lauber, Perunun Baş prokuroru Pablo Velarde və digərləri tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində təmsil etdikləri ölkələr arasında əməkdaşlığı daha da gücləndirmək məqsədi ilə yeni əlaqələndirici bazanın yaradılması qərara alınmışdır.

"Prokuror və müstəntiqlərin cinayət təqibində rolu" mövzusunda keçirilmiş illik konfransda dünyanın 92 ölkəsindən 550 nəfər, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak etmişlər.

Tədbirin sonuncu günü Assosiasiyanın Ümumi Yığıncağında qurumun ali orqanı olan İcraiyyə Komitəsinə keçirilmiş seçkilər zamanı ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə verdiyi töfhələr və yüksək səviyyəli işgüzar əlaqələr nəzərə alınmaqla Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri növbəti 3 il müddətinə Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü seçilmişdir




Görüşlər çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvləri Assosiasiyanın prezidenti, İrlandiya, Türkiyə və Qətərin Baş prokurorları, eləcə də Böyük Britaniya, Çin, Rusiya, Qazaxıstan, Ukrayna, Cənubi Koreya, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparmışlar.

# *Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq*

24-27 aprel 2016-cı il tarixlərində Ukrayna Respublikasının Kiyev şəhərində Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Korrupsiyaya qarşı mübarizə və yaxşı dövlət idarəçiliyinin inkişafı; çirkli pulların yuyulmasına qarşı mübarizə" mövzusunda seminar keçirilmişdir. Tədbirdə Baş İdarənin Əməliyyat İdarəsinin rəis müavini Emin Mürsəliyev, Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Zaur Axundzadə, İstintaq idarəsinin müstəntiqi Hüseyn Rüstəmli və Daxili təhlükəsizlik şöbəsinin prokuroru Əmir Qaloyev iştirak etmişdirlər.

28-29 aprel 2016-cı il tarixlərində Ukrayna Respublikasının Kiyev şəhərində Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Hüquqi şəxslərin məsuliyyəti üzrə qanunvericilik modeli" mövzusunda regional təlim keçirilmiş və tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ziya Hacıyev iştirak etmişdir.

16-17 may 2016-cı il tarixlərində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Avropa İttifaqı və Avropa Şurasının maliyyələşdirdiyi və Avropa Şurası tərəfindən həyata keçirilən "Proqram Əməkdaşlıq Çərçivəsi" layihəsi çərçivəsində "Çirkli pulların yuyulmasına qarşı mübarizə" və "İstintaq sövdələşməsi" mövzularında təlim kursları keçirilmişdir.

Təlimlərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun müvafiq idarələrinin, Baş prokuror yanında Korrupsiya qarşı Mübarizə Baş İdarəsinin, habelə Daxili İşlər Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Auditorlar Palatası, Hesablama Palatası, Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinq Xidmətinin nümayəndələri və birinci instansiya məhkəməsinin hakimləri iştirak etmişdir.

Cari ilin 17-18 oktyabr tarixlərdə Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən "Şərq tərəfdaşlıgı proqramı çərçivəsində, korrupsiyaya qarşı mübarizə və çirkli pulların yuyulmasının qarşının alınmasını idarə etmək" adlı regional konfrans keçirilmişdir.

Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Məhəmməd Hacıyev çıxış edərək respublikamızda informatorların müdafiəsi ilə bağlı aparılan instusional tədbirlər barədə və bununla bağlı hazırlanmış müvafiq qanun layihəsi haqqında ətraflı məlumat vermişdir.

22-23 noyabr 2016-cı il tarixlərdə Latviya Respublikasının paytaxtı Riqa şəhərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq tərəfdaşlığı ölkələrində həyata keçirilən «Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi»ndə «Korrupsiyaya qarşı mübarizə və Yaxşı idarəçiliyin təşviqi. Çirkli pulların yuyulmasına qarşı mübarizə» layihəsinin ikinci PƏÇ - Regional seminarı keçirilmişdir.

Tədbirdə ölkəmizi Baş İdarənin Daxili təhlükəsizlik şöbəsinin rəisi Vüqar Quliyev təmsil etmişdir.

Dekabrın 9-da "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" texniki yardım layihəsinin təqdimatı ilə bağlı tədbir keçirilmişdir.

Tədbirdə Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri xanım Malena Mard, habelə layihənin əsas benefesiarları olan Ədliyyə Nazirliyinin insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Faiq Qurbanov, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyev çıxış ediblər.

Çıxışlarda Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığa önəm verdiyi, bu qurumla ədliyyə sahəsində birgə uğurlu layihələrin həyata keçirildiyi vurğulanıb.

Məlumat verilib ki, Avropa İttifaqının maliyyələşdirdiyi, Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən iki il müddətində icra ediləcək layihənin əsas məqsədi ölkəmizdə ədliyyə sisteminin davamlı inkişafının dəstəklənməsi, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsidir.

Sonra layihənin qrup rəhbəri Pamela Fahey layihənin əhatə edəcəyi fəaliyyət istiqamətləri ilə bağlı təqdimatla çıxış edib. Qeyd edilib ki, layihə çərçivəsində təlimlərin, seminarların və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Cari ilin 20-21 dekabr tarixlərdə Bakı şəhərində "Marriott Abşeron" otelində Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində həyata keçirilən "Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi"nin "İfadə azadlığı və media azadlığı" mövzusunda təlim keçirilmişdir.

Təlimdə ifadə azadlığı standartları və AİHM-nin presedent hüququ, şəxsi həyata hörmət hüququ və ifadə azadlığı hüququ arasında balans və s. mövzular ətrafında müzakirələr aparılmaqla, "HELP" proqramının təqdimatı, "case-study" materialları əsasında kiçik qruplarda müzakirələr keçirilmişdir.

Təlimdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Pirayə Səmədzadə-Əliyeva, Preventiv tədbirlər və təhqiqat idarəsinin prokurorları Ramil Səfərov və Zamir Mahmudov, Əməliyyat İdarəsinin mühüm işlər üzrə əməliyyatçısı Rəmzi Abbaszadə iştirak etmişlər.

## *Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyası (IAACA) ilə əməkdaşlıq*



10-13 may 2016-cı il tarixlərdə Çin Xalq Respublikasının Tiançin şəhərində Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyasının (IAACA) 9-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

Konfransda ölkəmizi Azərbaycan Respublikasının Ədliyyə naziri, Assosiasiyanın vitse-prezidenti Fikrət Məmmədovun rəhbərlik etdiyi və Azərbaycan Respublikasının Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, habelə Ədliyyə Nazirliyinin və Baş Prokurorluğun məsul əməkdaşlarından ibarət nümayəndə heyəti təmsil etmişdir.

Anti-korrupsiya qurumlarının fəaliyyətinə həsr olunmuş konfransın əsas plenar sessiyasına sədrlik edən Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov giriş nitqi ilə çıxış edərək anti-korrupsiya orqanlarının inkişafı, rolu və əsas fəaliyyət istiqamətlərindən bəhs etmiş, Azərbaycanda bu sahədə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan əhatəli institusional və praktiki tədbirlər, o cümlədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılması, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla onun səlahiyyətlərinin genişləndirilməsi, kadr və maliyyə potensialının gücləndirilməsi barədə məlumat vermişdir.

Azərbaycan Respublikasının Baş prokurorunun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Beynəlxalq Anti-Korrupsiya Orqanları Assosiasiyasının (IAACA) 9-cu İllik Konfransı və Ümumi Yığıncağının plenar sessiyasında İdarənin fəaliyyəti, onun səmərəliliyinin artırılması, beynəlxalq əməkdaşlığa verilən töhfələr barədə təqdimatla çıxış etmiş, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının anti-korrupsiya internet şəbəkəsinin fəaliyyətinin təmin edilməsinin ölkəmiz tərəfindən həyata keçirilməsini qeyd etmişdir. Konfransda çıxış edən iştirakçılar ölkəmizin korrupsiyaya qarşı qlobal mübarizədə fəal iştirakını, bu sahədə qeyd olunan şəbəkənin mühüm rolunu vurğulamışlar.

## *Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM ilə əməkdaşlıq*

16-17 iyun 2016-cı il tarixlərdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi altqrupunun növbəti iclası keçirilmişdir.

Həmin iclasda ölkəmizi Baş İdarənin Mütəxəssis təhlilləri şöbəsinin rəisi Rəşid Mahmudov və Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru Orxan Nuriyev təmsil etmişlər.

07-08 noyabr 2016-cı il tarixlərdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi altqrupunun növbəti iclası keçirilmişdir

Tədbirdə ölkəmizi Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin böyük prokuroru Orxan Nuriyev və həmin idarənin prokuroru Nicat Şəmşirov təmsil etmişlər.

Tədbir zamanı O.Nuriyev korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə aparılan hərtərəfli islahatlar, antikorrupsiya qanunvericiliyi, habelə Prezident yanında Apellyasiya Şurasının yaradılması və fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

## Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) ilə əməkdaşlıq

2016-cı ilin 23-24 may tarixlərində Rumıniya Respublikasının paytaxtı Buxarest şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) İşçi Qrupunun "Səhiyyə sistemində korrupsiya – preventiv tədbirlər və istintaq, ən yaxşı təcrübələr və qarşıda duran vəzifələr" mövzusunda konfrans keçirilmişdir.

Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İsfəndiyar Hacıyev təqdimatla çıxış edərək səhiyyə sistemində korrupsiyanın qarşısının alınması məqsədi ilə həyata keçirilmiş hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat vermişdir.

Noyabrın 15-17-də Latviya Respublikasının paytaxtı Riqa şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 16-cı illik Peşəkar Konfransı və Baş Assambleyasının iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Assambleyanın açılışında Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsinin (OLAF) baş direktoru Covanni Kessler və Latviya Respublikasının Baş prokuroru Eriks Kalnmeiers çıxış edərək təşkilatın inkişafı ilə bağlı görülən işlər, əldə edilmiş uğurlar, korrupsiyaya qarşı mübarizə sahəsində dünyada həyata keçirilmiş mütərəqqi islahatlar, həmçinin gələcək planlar barədə ətraflı məlumat vermişlər.

Sessiyada çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində institusional və cinayət təqibi tədbirləri, o cümlədən Beynəlxalq Prokurorlar Assosiasiyasının Antikorrupsiya Şəbəkəsinin Baş idarə tərəfindən idarə edilən internet saytı və onun fəaliyyəti haqqında ətraflı məlumat vermişdir.

Tədbirdə, təşkilata üzv ölkələr tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində əldə olunmuş müsbət təcrübələr, o cümlədən korrupsiya hüquqpozmalarının araşdırılması üsulları və onunla mübarizə mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

## Digər tədbirlər, seminar və dəyirmi masalarda iştirak

Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyəti fevralın 3-dən 5-dək Malayziyada səfərdə olumuşdur.

K.Əliyev səfər çərçivəsində Malayziya Baş nazirinin ofisində şəffaflıq məsələləri üzrə nazir və parlamentin üzvü Paul Lou Seng Kuan, Malayziya Antikorrupsiya Komissiyasının (MACC) rəisi Datuk Abu Kassim bin Mohamed, MACC-ın rəis müavini Dato Sri Mohd Şukri Bin Abdullah ilə görüşmüşdür. Görüşdə hər iki ölkənin korrupsiyaya qarşı mübarizə qurumları arasında əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılmışdır.

Fevralın 4-də Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev və Antikorrupsiya Komissiyasının rəhbərliyinin iştirakı ilə Malayziya Antikorrupsiya Komissiyasının Putracaya şəhərində yerləşən baş qərargahında "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Malayziyanın Antikorrupsiya Komissiyası arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Bununla yanaşı, Malayziya Antikorrupsiya Komissiyasının nəzdində fəaliyyət göstərən "MACC FM" radiosuna baş çəkən K.Əliyev radioya canlı müsahibə də vermişdir. Müsahibə zamanı K.Əliyev malayziyalı dinləyicilərə rəhbərlik etdiyi qurumun fəaliyyəti və ölkəmizin uğurları haqqında danışmışdır.

Səfər çərçivəsində K.Əliyev Kuala Lumpur şəhərində yerləşən Malayziya Antikorrupsiya Akademiyasının (MACA) rəhbərliyi ilə görüşmüşdür. Qeyd edilən görüşdə Azərbaycan nümayəndə heyətinə Akademiya barədə geniş məlumat verilmiş və MACA-nın fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilmişdir. Nümayəndə heyəti, həmçinin Akademiyanın kitabxanası və burada təşkil olunan qısamüddətli təlim kurslarında iştirak edən xarici ölkə nümayəndələri üçün yaradılmış şəraitlə tanış olmuşdur.

Bundan əlavə, avqustun 8-dən 19-dək Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində Malayziya Texniki Əməkdaşlıq Proqramı və Malayziya Anti-Korrupsiya Akademiyasında (MACA) "Korrupsiyaya qarşı mübarizə



Proqramının Strateji İdarəetməsi üzrə Sertifikat" mövzusunda tədbir keçirilmişdir.

İki həftə davam edən seminarda Ağdaş rayon prokuroru vəzifəsini icra edən Ramin Hüseynov və Baş İdarənin Təşkilatı və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli iştirak etmişlər.

08-10 mart 2016-cı il tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində Corc Marşal adına Avropa Təhlükəsizlik elmləri mərkəzinin təşkilatçılığı ilə Transmilli Cinayətkarlıqla Mübarizə üzrə Konfrans keçirilmişdir.

Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli təqdimatla çıxış edərək ölkəmizdə korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat vermişdir.

20-21 aprel  2016-cı il tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində "Hüquq qaydası və korrupsiya: müasir çağırışlar" mövzusunda Korrupsiyaya qarşı 5-ci Avrasiya Forumu keçirilmişdir.

Forumda Baş İdarənin Əməliyyat təminatı şöbəsinin rəisi Fuad Rəsulov iştirak etmişdir.

20-21 iyun 2016-cı il tarixlərdə Rusiya Federasiyasının Soçi şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Cinayətkarlığa, xüsusilə onun mütəşəkkil formalarına qarşı mübarizə üzrə İşçi Qrupunun növbəti iclası keçirilmişdir.

Tədbirdə Baş İdarənin Daxili təhlükəsizlik şöbəsinin rəisi Vüqar Quliyev iştirak etmişdir.

Tədbirdə ölkəmizin nümayəndəsi Vüqar Quliyev çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermiş, eyni zamanda İşçi Qrupunun bundan əvvəlki iclasında təqdim olunmuş məlumatları yeniləmişdir.

Cari ilin 27 iyun-1 iyul tarixlərində Sinqapur Əməkdaşlıq Proqramı Təlim Təqaüdü (SCPTA) tərəfindən Sinqapur Respublikasında "Sinqapurun korrupsiyaya qarşı mübarizə strategiyası" mövzusunda keçirilmiş təlim kursunda Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Natiq Eyvazov iştirak etmişdir.

30-dan çox ölkə nümayəndələrinin dinləyici qismində iştirak etdiyi tədbirdə Sinqapurun korrupsiyaya qarşı mübarizə sahəsində keçdiyi yol, bu sahədə apardığı siyasət və əldə etdiyi təcrübə, qabaqlayıcı tədbirlər, cəza siyasəti, Sinqapur dövlətinin struktur




və funksiyaları və bu kimi əlaqədar mövzular tədris olunmuş, həmçinin iştirakçıların Sinqapurun Baş Prokurorluğu və Korrupsiya cinayətləri üzrə istintaq bürosunun (CPIB) inzibati binalarına tanışlıq səfərləri təşkil olunmuşdur.

Sentyabrın 7-də Minsk şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 26-cı iclası keçirilmişdir.

MDB prokurorluq orqanlarının əməkdaşlarının iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

İclasda çıxış edən K.Əliyev ölkəmizin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə sahəsində qəbul edilən bütün beynəlxalq və regional konvensiyalara qoşulduğunu, ölkəmizin beynəlxalq antiterror koalisiyasının, o cümlədən enerji təhlükəsizliyi və sülhməramlı əməliyyatların həyata keçirilməsində fəal iştirakçılardan birinə çevrildiyini qeyd etmişdir.

Bildirilmişdir ki, ölkəmiz ötən əsrin sonlarında terrora məruz qalaraq 20% ərazisi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş və nəzarətdən çıxan həmin ərazilər terrorçular üçün düşərgələrin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, təlimlərin keçirilməsi, terror aktlarının planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaradır.

Bununla yanaşı, Azərbaycan nümayəndə heyətinin rəhbəri K.Əliyev terrorçuluğa qarşı mübarizədə prokurorluğun rolu, ölkəmizdə bu sahədə qəbul edilmiş normativ hüquqi aktlar, milli konsepsiya və praktiki mexanizmlər barədə ətraflı məlumat vermişdir.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Rusiya, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan və Tacikistan nümayəndə heyətlərinin rəhbərləri ilə görüşlər keçirərək ikitərəfli əməkdaşlığın inkişafına dair müzakirələr aparmışdır.



12-14 oktyabr 2016-cı il tarixlərdə Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində, Avropa Şurasının maliyyə dəstəyi ilə, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Qara Dəniz qeyri-hökümət təşkilatı (Black Sea NGO forum) tərəfindən "Qara Dəniz Adalarının Dürüstlüyü" adlı regional konfrans keçirilmişdir.

Konfransda Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev iştirak etmişdir.

Cari ilin 17-18 oktyabr tarixlərində Vyana şəhərində Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (OSCE) İqtisadi və Ətraf mühit ölçüsü üzrə icra toplantısı keçirilmişdir.

Tədbirdə ölkəmizi Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru, Əmir Ocaqverdiyev təmsil etmişdir.

07-18 noyabr 2016-cı il tarixlərində Fransanın paytaxtı Paris şəhərində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda Fransanın Milli İdarəçilik Məktəbi (ENA) tərəfindən təşkil olunmuş təlim kursu keçirilmişdir.

Təlim kursunda Baş İdarənin böyük prokuroru Səbuhi Alıyev və Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Vüqar Əhmədli iştirak etmişlər.

Təlim kursunun yekununda S.Alıyev və V.Əhmədliyə Korrupsiyaya qarşı mübarizə Proqramının uğurla başa çatdırılması ilə bağlı müvafiq sertifikatlar təqdim edilmişdir.

Cari ilin 14-16 noyabr 2016-cı il tarixlərində Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının İmplementasiyasının Təftiş qrupunun bərpa olunan 7–ci sessiyasında və 17-18 noyabr 2016-cı il tarixlərində həmin şəhərdə təşkil edilmiş Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasına tərəf dövlətlərin 5-ci ekspert görüşündə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Natiq Eyvazov iştirak etmişdir.

Cari ilin 17-18 noyabr tarixlərində Avstriya Respublikasının Vyana şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiya əleyhinə Konvensiyasının İmplementasiyası üzrə Təftiş Qrupu tərəfindən Konvensiyasının implementasiyasının nəzərdən keçirilməsi mexanizmi ilə bağlı təlim kursu keçirilmişdir.

Təlim kursunda Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru Əmir Ocaqverdiyev və həmin idarənin prokuroru Ziya Hacıyevin iştirak etmişlər.

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORU YANINDA KORRUPSİYAYA QARŞI MÜBARİZƏ BAŞ İDARƏSİNİN STRUKTURU VƏ FƏALİYYƏTİ İSTİQAMƏTİ İLƏ TANIŞLIQ



Hesabat dövrü ərzində Səudiyyə Ərəbistanı, Türkiyə, Misir və Moldovadan olan nümayəndə heyətləri ölkəmizə səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Belə ki, cari ilin aprel ayında Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Elmləri üzrə Naif Ərəb Universitetinin Təlim fakültəsinin dekanı Məhəmməd Həsən Əlsarra və Əd-Diriyə dairəsinin prokuroru Müsəid bin Əbdülrəhman bin Ayəfin başçılıq etdikləri tərkibinə müxtəlif dairələrin prokurorlarının və digər məsul əməkdaşlarının daxil olduğu geniş nümayəndə heyəti, aprelin 19-da Türkiyə Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi, tərkibinə Ali Məhkəmənin Baş prokuroru Mehmet Akarca və digər məsul əməkdaşların daxil olduğu nümayəndə heyəti, habelə mayın 26-da Misir Ərəb Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış İnzibati Nəzarət Qurumunun İstintaq İdarəsinin rəisi Hany Mohamed Loay Hassaneinin rəhbərlik etdiyi nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olmuş və Baş İdarənin strukturu və fəaliyyət istiqamətləri ilə yaxından tanış olmuşlar.

Bundan əlavə, dekabr ayının 19-unda Azərbaycan və Moldova Respublikası prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin müsbət iş təcrübəsinin öyrənilməsi, səmərəli və müasir xidmət modeli olan “ASAN xidmət” mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədi ilə Moldova Respublikasının Milli Antikorrupsiya Mərkəzinin rəis müavini Vadim Kojokarunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlmişdir.

Səfər çərçivəsində qonaqlar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin strukturu və fəaliyyət istiqamətləri, o cümlədən Baş İdarənin idarə və şöbələrinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

# VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ QARŞILIQLI ƏMƏKDAŞLIQ



21 aprel 2016-cı il tarixində müxtəlif dövlət orqanları, qeyri-hökumət təşkilatları və media nümayəndələrinin iştirakı ilə "Şəffaflıq Azərbaycan" İctimai Birliyi tərəfindən "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı" layihəsi çərçivəsində müxtəlif dövlət qurumlarına təqdim edilən tövsiyə sənədlərinin son illər ərzində icra vəziyyəti ilə əlaqədar aparılmış monitorinqin yekun nəticələri əsasında hazırlanmış hesabata dair dəyirmi masa keçirilmişdir.

Qeyd edilən tədbirdə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Rüstəm Şükürov iştirak etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nda 4-cü maddə Vətəndaş Cəmiyyəti İnstitutlarına həsr olunduğundan, 09 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası "Açıq Hökumət tərəfdaşlığı, Hökumət-Vətəndaş Cəmiyyəti dialoq platforması" təsis yığıncağını keçirilmişdir.

Yığıncaqda Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayevlə yanaşı, Ədliyyə Nazirliyinin, Vergilər Nazirliyinin, Maliyyə Nazirliyinin, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasının və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişdirlər.

Müzakirələrdən sonra tədbir iştirakçıları 9 hökumət, 31 Vətəndaş Cəmiyyəti təmsilçisi olmaqla Açıq Hökumətin Təşviqinə dair "Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması"nın yaradılması barədə Memorandumu imzalamışdırlar.

4 avqust 2016-cı il tarixdə Bakı şəhərində "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Şəffaflıq Tərəfdaşlığı layihəsi çərçivəsində dövlət orqanları nümayəndələri və digər vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icra vəziyyətinin monitorinqinin nəticələri əsasında hazırlanmış hesabat təqdimatı keçirilmişdir.

Bundan başqa, 8 sentyabr 2016-cı il tarixdə Bakı şəhərində "Şəffaflıq Azərbaycan" İctimai Birliyi tərəfindən son illər ərzində müxtəlif sahələr üzrə mövcud problemlərin aydınlaşdırılması, şəffaflığın artırılması və korrupsiya hallarının qarşısının alınmasına dair məsələlərin müzakirəsi məqsədi ilə keçirilmiş dəyirmi masaların nəticələri qismində tərtib edilmiş tövsiyə sənədlərinin icra vəziyyətinin yekun monitorinqinə və "Açıq Hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icra vəziyyətinin monitorinqinə dair yekun hesabatların təqdimatları keçirilmişdir.

Hər iki tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ziya Hacıyev iştirak etmişdir.

13 oktyabr 2016-cı il tarixdə Bakı şəhərində Avropa Şurası Bakı ofisi, Avropa İttifaqı Bakı Nümayəndəliyi, Proqram Əməkdaşlığı Çərçivəsinin Milli Əlaqələndiricisi, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə İllik Koordinasiya Platforma görüşü keçirilmişdir.

Tədbirdə Proqram Əməkdaşlığı Çərçivəsində layihələrin icra olunması, dövlət orqanları və Avropa İttifaqı nümayəndələri əməkdaşlıq yollarının

gücləndirilməsi, habelə 2017-ci il üçün Azərbaycanla bağlı Fəaliyyət Planının hazırlıqları barədə müzakirələr aparılmış, həmçinin vətəndaş cəmiyyəti institutlarının nümayəndələri tərəfindən növbəti il üçün nəzərdə tutulmuş Fəaliyyət Planının icrası ilə əlaqədar onların daha sıx əməkdaşlığa cəlb edilməsi barədə təkliflər səsləndirilmişdir.

Qeyd olunan görüşdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev və həmin İdarənin prokuroru Natiq Eyvazov iştirak etmişlər.

Sentyabrın 7-si Bakıda "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinqinin nəticələri təqdim olunub. Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Məhəmməd Hacıyev iştirak etmişdir.

# MAARİFLƏNDİRMƏ SAHƏSİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR

Hesabat dövrü ərzində Baş İdarənin əməkdaşları mütəmadi olaraq cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsinə dair keçirilmiş dəyirmi masalar, konfrans və seminarlar, ictimai dinləmələrdə iştirak etmişlər.

2016-cı ilin 15 yanvar və 15 iyul 2016-cı il tarixlərində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2015-ci il və 2016-cı ilin I yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir. Mətbuat konfranslarında çıxış edən Baş prokurorun müavini-Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

Hesabat dövründə "AzTV" və "İctimai" televiziyada Baş İdarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri və istintaqı aparılan cinayət işləri barədə ictimaiyyətə mütəmadi məlumatlar verilmişdir.

Həmçinin, Baş İdarə tərəfindən istintaqı aparılan cinayət işləri, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri, beynəlxalq təşkilatlarla əməkdaşlıq barədə kütləvi informasiya vasitələrində yayılması üçün





məlumatlar hazırlanaraq Baş Prokurorluğun Mətbuat xidmətinə təqdim edilmişdir.

Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsi tərəfindən  korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində bülleten, buklet, kitablar, metodiki vəsaitlər hazırlanaraq nəşr edilmişdir.

Baş İdarənin əməkdaşları mütəmadi olaraq cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsinə dair keçirilmiş dəyirmi masalar, konfrans və seminarlar, ictimai dinləmələrdə iştirak etmişlər.

Bununla yanaşı, Baş İdarənin müvafiq struktur qurumlarının əməkdaşları korrupsiyaya qarşı mübarizəyə dair Baş İdarənin fəaliyyəti barədə Ədliyyə Akademiyasında, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Baş Prokurorluğun Elm-Tədris mərkəzində mühazirələr oxumuşlar.

2016-cı ilin 16-17 may tarixlərində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi və Avropa Şurası tərəfindən həyata keçirilən "Proqram Əməkdaşlıq Çərçivəsi" layihəsi üzrə "Çirkli pulların yuyulmasına qarşı mübarizə" və "İstintaq sövdələşməsi" mövzularında tədbir keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Auditorlar Palatası, Hesablama Palatası, Maliyyə Bazarlarına Nəzarət Palatasının Maliyyə Monitorinq Xidmətinin nümayəndələri və birinci instansiya məhkəmələrinin hakimləri iştirak etmişdir.

2016-cı ilin sentyabr ayının 18-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin müstəntiqləri və təhqiqatçılarının cinayət və cinayət-




prosessual qanunvericiliyi üzrə nəzəri biliklərinin və praktiki hazırlıqlarının artırılması məqsədilə Vergilər Nazirliyi və Baş Prokurorluğun rəhbərliyi tərəfindən imzalanmış əmrə əsasən birgə təlimlər keçirilmişdir. Təlimlər oktyabr ayının 8-də uğurla başa çatdırılmış, dinləyicilərə təlim kursunda iştiraklarına və fərqlənməyə görə müvafiq sertifikat və şəhadətnamələr təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" imzaladığı 11 oktyabr 2016-cı il tarixli Sərəncamın icrası məqsədilə Baş Prokurorluq üzrə təsdiq olunmuş Tədbirlər Planına uyğun təşkil olunmuş tədbirdə Prezident Administrasiyasının, Milli Məclisin, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Konfransda Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev çıxış edərək müstəqillik illərində ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş institusional və qanunvericilik tədbirləri barədə ətraflı məlumat verilmişdir.

Noyabr ayın 18-də həmçinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında hakimlər üçün «Korrupsiyaya qarşı mübarizədə milli və beynəlxalq mexanizmlər» mövzusunda ixtisasartırma kursu keçirilmişdir.

Tədbirdə Baş İdarənin Daxili təhlükəsizlik şöbəsinin rəisi Vüqar Quliyev tərəfindən «Korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının qarşılıqlı əlaqəsi» mövzusunda mühazirə söylənilmişdir.

Bundan başqa qeyd olunmalıdır ki, Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsi tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində bülleten, buklet, kitablar, metodiki vəsaitlər hazırlanaraq nəşr edilmişdir.



# ƏMƏLİYYAT İŞÇİLƏRİNİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və 250-dən artıq prokurorluq əməkdaşının fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası dünya prokurorlarını bir qurumda birləşdirən, onların ilk və yeganə beynəlxalq təşkilatı olmaqla 1995-ci ildə yaradılmışdır. Azərbaycan Respublikasının Baş Prokurorluğu yarandığı gündən bu təşkilata üzv olmaqla onunla səmərəli əməkdaşlığı həyata keçirir.

Bu təşkilatın üzvləri mütəmadi olaraq həmin quruma üzv olan dövlətlərdə həyata keçirilən islahatlar, müsbət iş təcrübəsi, prokurorluğun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlara dair nəşrlərlə təmin olunmaq imkanına malikdirlər.

Beynəlxalq Prokurorlar assosiasiyasına üzvlük könüllülük prinsipi əsasında fərdi və kollektiv qaydada aparılır. Təşkilata illik fərdi üzvlük haqqı 50 avro təşkil edir.

Qeyd olunanlara əsasən prokurorluq əməkdaşlarından həmin təşkilata üzv olmaq istəyənlər əlaqələndirici şəxs Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyevə (tel.: (012) 361-11-11, faks: 563-61-16, e-mail: i.haciyev@prosecutor.gov.az) müraciət edə bilərlər

Müraciət edən şəxslərdən iş yeri, vəzifəsi, əlaqə telefonu və elektron ünvanlarının qeyd olunması xahiş olunur.